# Azərbaycan İranın kədərli günlərində də yanındadır

Dünyanın bütün ölkələri, xüsusilə də sərhəd qonşuları ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr quraraq inkişaf etdirmək Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan ölkəmizin yaxın qonşularından olan İran İslam Respublikası ilə münasibətlərin yaxşılaşdırılması, əlaqələrin genişləndirilməsi və əməkdaşlığın daha da möhkəmləndirilməsi yönündə həyata keçirdiyi işlər təqdirəlayiqdir.

Əsrlər boyu bərabər yaşayan və İslam aləminə mənsub İran və Azərbaycan xalqlarının elmi, mədəni əlaqələri tarix boyu güclü olub. Bu iki ölkənin - Azərbaycanın və İranın diplomatik münasibətlərinin də tarixi qədim və zəngindir. Son illər ölkələrimiz arasında əlaqələri uğurla davam və inkişaf etdirilir. Bu gün Azərbaycan və İran dost, qardaş ölkələr, mehriban qonşulardır. Hazırda ölkələrimiz arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan tarixi və mədəni əlaqələr daha da inkişaf etməkdədir.

Mayın 19-da Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin nümayəndə heyətlərinin iştirakı ilə görüşü oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin iştirakı ilə Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasiminin keçirilməsi iki ölkə arasında tarixi hadisəyə çevrildi. Açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev vurğuladı: "İran-Azərbaycan birliyi, dostluğu sarsılmazdır. Heç kim bizim aramıza girə bilməz. Bu səylər əbəsdir və biz bugünkü mərasimlə bunu bir daha sübut edirik".

Azərbaycan və İran xoş, sevincli vaxtlarında olduqları kimi, kədərli günlərində də bir-birinin yanındadır. Mayın 19-da İbrahim Rəisinin helikopterinin İranın Verzeqan şəhəri yaxınlığında qəzaya uğraması, hadisə nəticəsində bütün sərnişinlərin və ekipaj üzvlərinin həlak olması xəbəri ölkəmizdə hüznlə qarşılanıb. İranın Azərbaycandakı səfirliyinin binası önündə helikopter qəzasında həlak olmuş şəxslərin xatirəsi üçün guşə yaradılıb. Ölkəmizin vətəndaşları İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və onları müşayiət edən digər şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması ilə əlaqədar İran xalqına başsağlığı verir, yaradılmış xatirə guşəsinin qarşısına gül qoyaraq faciə qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olub, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və onları müşayiət edən digər şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verib. Dövlətimizin başçısı İran İslam Respublikasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili ilə söhbətində bildirib ki, İran İslam Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisinin faciəli şəkildə həlak olması bizim hamımızı dərindən sarsıdıb: "Onunla bərabər xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və digər şəxslər faciəli şəkildə həlak olublar. Allah onlara rəhmət eləsin. İran xalqının başı sağ olsun. Bu, böyük itkidir. Bu itki təkcə İran xalqına, dövlətinə üz verməyib, bütün müsəlman aləminə üz verib".

Prezident İlham Əliyev Seyid İbrahim Rəisinin böyük dövlət xadimi, görkəmli siyasətçi və İran xalqının etibarını qazanmış böyük şəxsiyyət olduğunu qeyd edib: "Onunla çoxsaylı görüşlərim hər zaman məndə çox böyük təəssürat izi buraxırdı. Onunla son görüşüm isə tarixi bir görüş idi. Həm o, həm də mən bu görüşü məhz tarixi görüş adlandırmışdıq. Dövlət sərhədində böyük infrastruktur layihəsinin açılışında birgə iştirakımız İran-Azərbaycan əlaqələrinin nə qədər möhkəm olmasından xəbər verirdi, həm xalqlarımıza, həm bütün dünyaya çox açıq mesaj idi ki, biz dostuq, qardaşıq, biz bundan sonra da birlikdə olacağıq".

Mayın 22-də Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar Tehran şəhərində keçirilən rəsmi anım mərasimində iştirak ediblər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 23 may, № 107.- S.7.